# Birinci Avropa Oyunları yaddaşlarda daim yaşayacaqdır



**Respublikamız növbəti möhtəşəm tədbiri yola saldı. On yeddi gün ərzində tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına ölkəmiz layiqincə ev sahibliyi etdi. Azərbaycan on yeddi gün ərzində 21 qızıl, 15 gümüş, 20 bürünc medal sevincini yaşadı. Ölkəmiz bu göstəricilərinə görə yalnız Rusiya Federasiyasından geri qalaraq ikinci yeri tutdu. Ölkəmiz Avropanın 49 ölkəsindən 48-ni geridə qoyaraq qitə ikincisi oldu və doğrudan da, bu, böyük şərəfdir. Dünyanın yaxından izlədiyi birinci Avropa Oyunlarına Azərbaycanın ev sahibliyi etməsi ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasına mühüm töhfələr verəcəkdir. Avropanın tarixində ilk dəfə keçirildiyinə görə cari il iyun ayının 12-dən 28-nə kimi Bakıda keçirilmiş birinci Avropa Oyunları xüsusi əhəmiyyət daşıyır. İlk dəfə təşkil olunan Avropa Oyunları ilə qitənin idman tarixində yeni səhifə açıldı. Mübaliğəsiz demək olar ki, respublikamızın idman ölkəsi kimi nüfuzu qitənin sərhədlərini də aşaraq dünyada bundan sonra da ikiqat artacaq. İlk Avropa Oyunlarında 50 ölkədən 6 mindən çox idmançı 20 növ üzrə 253 dəst medal uğrunda mübarizə apardı.**

İlk Avropa Oyunları üzrə aparılan işlər yüksək səviyyədə həyata keçirildi. Belə ki, təşkilatçılar nəzərdə tutulan vaxtda hazırlıq işlərini tamamladılar. Yarışın keçiriləcəyi ünvanlardan biri olan, öz gözəlliyi ilə insanları valeh edən Bakı Gimnastika Arenası, Atletlər kəndi, Media kəndi məhz Nizami rayonunun ərazisindədir.

Ölkəmiz "Bakı-2015" birinci Avropa Oyunlarına böyük məsuliyyətlə hazırlaşdı. Demək olar ki, bütün hazırlıq işləri ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsi tərəfindən həyata keçirildi. 2013-cü il fevralın 2-də Təşkilat Komitəsinin ilk iclasında Mehriban xanım Əliyeva birinci Avropa Oyunlarının Bakıda keçirilməsinə qərar verilməsini ölkəmiz üçün yüksək etimad kimi dəyərləndirərək demişdir: "Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmiz üçün, ümumiyyətlə, bütün Avropa Olimpiya hərəkatı üçün tarixi hadisədir. Regionun lider dövlətinə çevrilməsi Azərbaycanın sürətli inkişafı, dünya birliyində tutduğu mövqe, mövcud ictimai-siyasi sabitlik, beynəlxalq ictimaiyyətdə əminlik yaradıb ki, ölkəmiz bu mötəbər tədbirə uğurla ev sahibliyi edə bilər".

Beləliklə, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsinin üzvləri hazırlıq işlərinə start verdikləri ilk gündən öz fəaliyyətlərində Avropa idman ailəsinin ölkəmizə göstərdikləri yüksək etimadı doğrultmağa çalışıblar. Paytaxtda birinci Avropa Oyunları ilə əlaqədar həyata keçirilən infrastruktur layihələri, yeni idman arenalarının inşası, mövcud obyektlərdə əsaslı yenidənqurma işlərinin aparılması, Atletlər kəndinin hazırlanması, digər tədbirlərin əlaqələndirilməsi və qısa müddətdə reallaşdırılması Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Təşkilat Komitəsinin fəaliyyətinin miqyası barədə konkret təsəvvür yaradır.

Ümumilikdə götürdükdə vurğulanmalıdır ki, ölkə Prezidenti cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinə rəhbər seçildikdən sonra qazanılan uğurların, medalların sayı ildən-ilə artır. Belə ki, 2000-ci ildə Azərbaycan idmançıları tərəfindən Sidney Yay Olimpiya Oyunlarında ilk böyük uğur - 31 idmançı tərəfindən 2 qızıl və 1 bürünc medal qazanılmışdır. Bundan sonra Afinada keçirilən yarışda (2004-cü il) 38 idmançı ilə biri qızıl olmaqla 5, Pekində (2008-ci il) 44 iştirakçı ilə biri qızıl olmaqla 7 medal qazanılmışdır.

2012-ci il London Yay Olimpiya Oyunları isə Azərbaycan idmançıları üçün çox uğurlu oldu. İdmançılarımız doğma Azərbaycana rekord sayda - 2-si qızıl, 2-si gümüş və 6-sı bürünc olmaqla 10 medalla qayıtdılar. Komandamız bu göstərici ilə 205 ölkə arasında 30-cu yerlə kifayətləndi.

Bütün illər kimi, 2014-cü ildə Azərbaycan idmanı üçün də uğurlu olmuşdur. Müxtəlif beynəlxalq yarışlarda qazanılmış 805 medalın 75-i qızıl, 255-i gümüş, 275-i isə bürünc əyarlıdır. Olimpiya idman növləri üzrə qazanılan medalların sayı isə 278-dir. Azərbaycanda mütəmadi olaraq beynəlxalq yarışlar, dünya və Avropa çempionatları keçirilir. Müstəqillik dövründə ölkənin şəhər və rayonlarında 39 Olimpiya İdman Kompleksi tikilib istifadəyə verilmişdir ki, bunlardan biri də məhz ötən ilin payına düşür. Abşeron, Neftçala, Ağcabədi, Goranboy, Tərtər, Yevlax rayonlarında, Bakının Xəzər rayonunda Olimpiya İdman komplekslərinin, Yardımlı rayonunda İdman Kompleksinin tikintisi və Lənkəran Olimpiya İdman Kompleksinin yenidən qurulması işləri davam etdirilir. İlkin məlumatlara görə, 2015-ci ilin əvvəlinə ölkədə idman qurğularının sayı 10,8 minə çatmışdır və idmanla məşğul olanların sayı müntəzəm olaraq artmaqdadır. Əhali arasında futbol, voleybol, şahmat, yüngül atletika, sərbəst güləş, cüdo və stolüstü tennis kimi idman növlərinə daha çox maraq göstərilir.

Bütün bu uğurlar cənab İlham Əliyevin həm ölkə, həm də Milli Olimpiya Komitəsinin prezidenti kimi Azərbaycan idmanına göstərdiyi diqqət və qayğının nəticəsidir. Ölkə Prezidenti cənab İlham Əliyev Bakıda keçirilmiş birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılar, onların məşqçiləri, idman ictimaiyyətinin nümayəndələri və xarici tərəfdaşlarla görüşü zamanı demişdir: "Birinci Avropa Oyunları ölkəmiz və Avropa üçün tarixi hadisədir. Ölkəmiz üçün ona görə tarixi hadisədir ki, bu günə qədər Azərbaycanda bu səviyyədə beynəlxalq idman yarışı keçirilməmişdir. ...Mən bu gün Təşkilat Komitəsinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Çünki Təşkilat Komitəsinin çox böyük və gərgin fəaliyyəti olmuşdur. ...Təşkilat Komitəsinə rəhbərlik etmiş Mehriban Əliyevanın böyük fəaliyyətini xüsusilə yüksək qiymətləndirirəm. O, bu Oyunların keçirilməsinə çox böyük töhfə vermişdir. Deyə bilərəm ki, bu Oyunların bu səviyyədə keçirilməsinə öz canını qoymuşdur. Mən Təşkilat Komitəsinin tərkibini müəyyən edərkən tam əmin idim ki, bu tərkibdə bu Komitə ən yüksək nəticə göstərə bilər. Çünki burada həm təcrübə, həm peşəkarlıq və ən önəmlisi xalqa, dövlətə sevgi, məhəbbət var idi və var. Bu, ümumiyyətlə, ölkəmizin əldə etdiyi uğurların əsas şərtidir".

Beləliklə, respublikamız birinci Avropa Oyunlarını ən yüksək səviyyədə keçirdi və bu, ölkəmizin, eləcə də Avropanın idman tarixində əlamətdar hadisə oldu. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşkilatçılığı ilə yüksək səviyyədə öz işini başa çatdıran və dünya idman tarixinə qızıl hərflərlə yazılan birinci Avropa Oyunları yaddaşlarda daim yaşayacaqdır.

Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban Əliyevaya Prezident İlham Əliyevin 29 iyun 2015-ci il tarixli sərəncamı ilə Azərbaycanın ən ali dövlət təltifi olan "Heydər Əliyev" ordeni verildi. Bu, Azərbaycan dövlətinin Mehriban xanım Əliyevanın fəaliyyətinə və xalqımız qarşısındakı xidmətlərinə verdiyi yüksək qiymətin göstəricisidir.

"Heydər Əliyev" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına ölkəmizin tərəqqisinə, əzəmətinin və şöhrətinin artmasına töhfə olan müstəsna xidmətlərinə görə verilir. Bu baxımdan Mehriban xanım Əliyevanın həyata keçirdiyi çoxşaxəli fəaliyyət onun ölkəmizin ən ali dövlət təltifinə layiq olduğunu təsdiq edir. Son iki ildə isə Mehriban xanım Əliyeva I Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri kimi bir missiyanı layiqincə yerinə yetirdi. Mehriban xanım Əliyeva demişdir: "Vətənimizə, doğma Azərbaycanımıza xidmət etmək ən böyük şərəfdir və xidmətimizin nəticələrini görüb yaşamaq ən böyük xoşbəxtlikdir... Hər birimiz ölkəmizin əsgəriyik və Azərbaycanın gələcəyi naminə daha da tam gücümüzlə xidmət etməyə hazırıq". İnanırıq ki, bundan sonra da idmançılarımız beynəlxalq tədbirlərdə ölkəmizi layiqincə təmsil edəcək, bayrağımızı yüksək zirvələrə qaldıracaqlar.

**Qara QARAKİŞİYEV,**
**Nizami Rayon İcra Hakimiyyəti başçısının Keşlə qəsəbəsi üzrə nümayəndəsi, YAP rayon təşkilatı İdarə Heyətinin üzvü.**